No: 03 2025
https://doi.org/10.64400/ea25-3-31
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# MƏRKƏZİ ARAN İQTİSADİ RAYONUNDA KƏND MƏSKUNLAŞMASININ MÜASİR İNKİŞAF MEYİLLƏRİ

**Seyidnisə ƏLİYEVA**

AR ETN akad. H.Ə.Əliyev ad. Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* nisealiyeva54@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 24.09.2025
*Nəşr edilmə tarixi:* 28.10.2025

**AÇAR SÖZLƏR:**
iqtisadi rayon, kənd məskunlaşması, kənd əhalisi, kəndlərin qruplaşması, inzibati rayon.

**XÜLASƏ**

Kənd məskunlaşması ölkənin bütün regionlarını əhatə edir, əhalinin də yarıya qədəri bu məntəqələrdə yaşayır. Kəndlərin yerləşməsində su ehtiyatlarının olduğu ərazilərə yaxınlıq mühüm rol oynayır. Ona görə ki, düzənlik və dağətəyi ərazilərdə əkinçilik yalnız suvarma şəraitində mümkün olur. Kür-Araz ovalığının mərkəzi və qərb hissələrini tutan Mərkəzi Aran iqtisadi rayonunda da kənd məskunlaşmasının əhəmiyyəti böyükdür. İqtisadi rayona daxil olan inzibati rayonlarda əhalinin əsas hissəsi kəndlərdə məskunlaşır. Kənd yaşayış məntəqələrinin sayının çox olması ilə əlaqədar iqtisadi rayon ölkənin ən mühüm kənd təsərrüfatı məhsulları istehsal edilən regionlarından biridir.
Son vaxtlarda kənd əhalisi arasında təbii artımın aşağı düşməsi onun sayının artımının da azalmasına gətirib çıxarmışdır. Kəndlərdə məskunlaşan əhalinin sosial-mədəni ehtiyaclarının ödənilməsi, onların iş yerləri ilə təminatı, həyat səviyyəsinin yüksəldilməsi vacib vəzifələr kimi qarşıda durur.
Məqalədə iqtisadi rayonda kənd məskunlaşmasının müasir vəziyyəti, onun nizamlanması yolları, kəndlərin inkişaf problemləri tədqiq olunur.

## MÖVZUNUN AKTUALLIĞI.

Kənd əhalisinin məskunlaşması və kənd təsərrüfatı daim qarşılıqlı əlaqədə olur. Kənd əhalisinin xeyli hissəsi bu sahədə çalışır. Onlar gəlirlərinin xeyli hissəsini bu sahədə məhsul istehsalı və satışından əldə edir, onun əsas istiqamətverici qüvvəsidir. Eyni zamanda əhali istehsal edilən ərzaq məhsullarının istehlakçısı kimi çıxış edir.

Kənd təsərrüfatı isə kəndlərin iqtisadi bazası rolunu oynayır. Bu sahədən əldə edilən gəlirlər kəndlərin iqtisadi və sosial-mədəni inkişafı üçün maddi gəlir mənbəyi rolunu oynayır, maliyyə mənbələri əldə edilən sahələrdən biridir.

Bunları nəzərə alaraq kəndlərin demoqrafik inkişafı və kənd məskunlaşmasının öyrənilməsi tələb olunur.

## TƏDQİQAT OBYEKTİ.

Mərkəzi Aran iqtisadi rayonunun tərkibinə ölkənin mühüm sosial-iqtisadi inkişaf mərkəzlərindən biri olan Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Zərdab və Yevlax inzibati rayonları daxildir [10]. Sahəsi 6,69 min km$^2$, əhalisinin sayı 720,6 min nəfər, o cümlədən şəhər əhalisi 295,3 min nəfərdir [4, s.67; 5, s. 68, 86]. Ölkənin ərazisinin 7,73%-i, əhalisinin 7,08%-i, şəhər əhalisinin 5,32%-i Mərkəzi Aran iqtisadi rayonunun payına düşür.

İqtisadi rayon ölkənin təsərrüfatında kənd təsərrüfatının pambıqçılıq, bostançılıq-tərəvəzçilik, taxılçılıq və heyvandarlıq sahələrinin inkişafına, elektrik enerjisi istehsalına görə fərqlənir [12, 13].

## MƏLUMAT MƏNBƏLƏRİ VƏ TƏDQİQAT METODLARI.

Tədqiqat prosesində Azərbaycan Dövlət Statistika Komitəsinin əhalinin sayı üzrə məlumatlarından, siyahıyaalınma materialından, elmi ədəbiyyat mənbələrindən istifadə edilmişdir. Elmi təhlillərin aparılması üçün tarixi-coğrafi yanaşma, statistika, müqayisə metodlarından istifadə edilmişdir.

**MƏSƏLƏNİN İZAHI.**

**Kənd əhalisinin sayının dinamikası**. Əhalinin sayı ən mühüm demoqrafik potensial olmaqla yanaşı, kənd təsərrüfatı üçün də mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, onların xeyli hissəsini əmək ehtiyatları təşkil edir.

Mərkəzi Aran iqtisadi rayonunda kənd məskunlaşması üstünlük təşkil etdiytinə görə kənd əhalisinin sayı da çoxdur və ümumi artımı davamlı olaraq gedir. 2024-cü ilin əvvəlində iqtisadi rayonda 425,3 min nəfər kənd əhalisi olmuşdur. Ölkənin kənd əhalisinin 9,1 8%-i iqtisadi rayonunun payına düşür. Kəndlərdə ümumi əhalinin 59,0%-i yaşayır [5].

Kənd əhalisinin sayına görə regiona daxil olan inzibati rayonlar arasında xeyli fərqlər vardır. Kənd əhalisinin sayı demoqrafik inkişaf xüsusiyyətlərindən, kəndlərin sayı və onlarda kənd təsərrüfatının inkişafından, kəndlər ətrafında kənd təsərrüfatına yararlı torpaq sahələrinin olmasından, sosial-iqtisadi inkişaf səviyyəsindən, iş yerləri ilə təminat və miqrasiyalardan asılıdır [7].

Bunları nəzərə alaraq demək olar ki, kənd əhalisinin sayına görə *Kürdəmir rayonu* irəlidə durur (Cədvəl 1). Rayonun kəndlərində 2024-cü ilin əvvəlində 96,2 min nəfər əhali yaşamışdır [5]. Onlar iqtisadi rayonun kənd əhalisinin 22,6%-ni təşkil edir. İkinci yeri tutan *Göyçay rayonunun* kənd əhalisi 84,3 min nəfər təşkil edir. Onlar iqtisadi rayonun kənd əhalisinin sayında payı 19,8%-dir. Üçüncü yeri tutan *Ağdaş rayonu* üzrə bu göstəricilər müvafiq olaraq əhalinin sayı üzrə 72,8 min nəfər və xüsusi çəkisi 17,1% səviyyəsindədir.

*Cədvəl 1*

İnzibati rayonlarda kənd əhalisinin sayının dəyişməsi

| İnzibati rayonlar | Əhalinin sayı, min nəfər | | | | | Artım tempi, faiz | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1989 | 1999 | 2009 | 2019 | 2024 | 1989-99 | 1999-09 | 2009-19 |
| Ağdaş | 50,7 | 62,7 | 65,8 | 70,0 | 72,8 | 123,8 | 104,9 | 106,4 |
| Göyçay | 54,0 | 65,7 | 73,2 | 81,1 | 84,3 | 121,7 | 111,4 | 110,8 |
| Kürdəmir | 60,1 | 74,6 | 82,9 | 92,9 | 96,2 | 124,1 | 111.1 | 112,1 |
| Ucar | 48,7 | 55,8 | 61,3 | 65,6 | 67,9 | 114,6 | 109.8 | 107,0 |
| Yevlax | 41,9 | 49,6 | 53,0 | 55,3 | 56,7 | 118,2 | 106,8 | 104,3 |
| Zərdab | 29,7 | 35,4 | 41,8 | 45,9 | 47,4 | 119,1 | 118,1 | 109,8 |
| İqtisadi rayon | 285,1 | 343,8 | 378,0 | 410,8 | 425,3 | 120,6 | 110,0 | 108,7 |
| İqtisadi r-n payı, % | 8,87 | 8,84 | 9,04 | 9,11 | 9,18 | - | - | - |
| Azərbaycan Resp-sı | 3215,3 | 3889,2 | 4183,3 | 4511,1 | 4633,0 | 121,3 | 107.3 | 107,8 |

**Mənbələr**: Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, cins-yaş tərkibi. Вакı: ДSК, 2000. S. 25-35. Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. Вакı: ДSК, 2010, S. 24-30. Azərbaycan Respublikasında əhalinin siyahıyaalması. 2019-cu il. I c. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. Вакı: ДSК, 2022, S. 30-32. 2024-cü il "Azərbaycanın demoqrafik göstəriciləri -2023". Statistik məcmuə. Bakı, DSK 2024. Səh. 74-82, 83-88.

Qalan inzibati rayonlarda kənd əhalisinin sayı 70,0 min nəfərdən aşağıdır. Onlara *Yevlax, Ucar* və *Zərdab* inzibati rayonları aiddir. Yevlax rayonunda inzibati mərkəzin sənaye şəhərləri qrupuna daxil olması, əhalisinin sayının çoxluğu, bir neçə qəsəbənin mövcudluğu şəraitində kənd əhalisinin sayı nisbətən azdır və 56,7 min nəfər təşkil edir. Onlar iqtisadi rayonun kənd əhalisinin 13,3%-i qədərdir. Ucar və Zərdab rayonlarının sosial-iqtisadi və mədəni potensialı zəifdir, kəndlərin

sayı azdır, kənd təsərrüfatına yararlı əkin sahələri məhduddur. Ona görə kəndlərdə əhalinin sayı çox deyildir. 2024-cü ilin əvvəlində Ucar rayonunda 67,9 min nəfər, Zərdab rayonunda 47,4 min nəfər kənd əhalisi olmuşdur ki, bu da sonuncu sıralar deməkdir. Ucar rayonunda iqtisadi rayonun kənd əhalisinin 16,0%-i, Zərdab rayonunda 11,2%-i cəmlənir.

Müstəqillik illərində Mərkəzi Aran iqtisadi rayonu kəndlərində əhalinin sayı zəif templə də olsa, daim artmışdır. İlkin dövrlərdə təbii artımın yüksək göstəriciləri də yüksək templə artıma imkan vermişdir Lakin son vaxtlarda əhalinin, o cümlədən kənd əhalisinin sayının artımı nisbətən zəif templə gedir.

1989-cu ildə Mərkəzi Aran iqtisadi rayonunda ümumi əhalinin sayı 510,3 min nəfər, o cümlədən kənd əhalisinin sayı 285,1 min nəfər olmuşdur (Cədvəl 1). Onların müvafiq olaraq ölkənin ümumi əhalisinin sayında xüsusi çəkisi 7,27%, kənd əhalisinin sayında payı 8,87% olmuşdur [8]. Kənd əhalisinin ümumi əhaliyə görə xüsusi çəkisi 55,9% təşkil etmişdir. İnzibati rayonlar üzrə Kürdəmirdə kənd əhalisinin sayı 60,0 min nəfərdən, Ağdaş və Göyçay rayonlarında 50,0 min nəfərdən, Uçar və Yevlax rayonlarında 40,0 min nəfərdən çox qeydə alınmışdır. Zərdab rayonunda 1989-cu ildə 30,0 min nəfərə yaxın kənd əhalisi vardı.

1999-cu ildə iqtisadi rayonda əhalinin sayı 601,5 min nəfər, o cümlədən kənd əhalisinin sayı 343,8 min nəfər təşkil etmişdir. Burada kənd əhalisinin payı 1989-cu ilə nisbətən xeyli yüksəlmiş və 57,2%-ə çatmışdır [1, 6]. İqtisadi rayonda ümumi əhaliyə nisbətən kənd əhalisinin sayı daha yüksək templə çoxalmışdır (20,6%). Lakin buna baxmayaraq, kənd əhalisinin artımı ölkə üzrə orta göstəricidən aşağıdır. Ona görə respublikanın kənd əhalisinin sayında Mərkəzi Aran iqtisadi rayonunun payı xeyli azalmışdır. İqtisadi rayona daxil olan inzibati rayonlarda mərkəzi şəhər və qəsəbələr miqrasiya edən kənd əhalisini qəbul edə bilmir, onların iş yerləri və yaşayış şəraiti ilə təminatında çətinliklər yaranır [9].

Eyni zamanda 1989-1999-cu illərdə gərgin ictimai-siyasi şərait, Qarabağ münaqişəsi və milli münasibətlərin gərgin olduğu dövrə təsadüf edir. Mürəkkəb ictimai-iqtisadi və sosial-demoqrafik şərait miqrasiyaların intensiv getməsinə, az vaxtda təbii artımın aşağı düşməsinə gətirib çıxarmışdır. Nəticədə az vaxtda əhalinin sayının artım sürəti ciddi şəkildə aşağı enmişdir [13].

Bunu sonrakı siyahıyaalınmalar arasındakı dövrlərdə əhalinin sayının artım tempi də göstərir. 2009-cu ildə iqtisadi rayonda əhalinin ümumi sayı 656,6 min nəfər, o cümlədən kənd əhalisinin sayı 378,0 min nəfər olmuşdur. 1989-1999-cu illərdə ümumi əhalinin sayı 91,2 min nəfər, kənd əhalisinin sayı 58,7 min nəfər artmışdırsa, sonrakı 10 illik dövrdə bu göstəricilər müvafiq olaraq ümumi əhali üzrə 55,1 min nəfər (9,2%), kənd əhalisi üzrə 34,2 min nəfər (10,0%) təşkil etmişdir.

Mərkəzi Aran iqtisadi rayonunun ümumi əhali arasında payı azalmaqda davam etsə də, kənd əhalisinin payı artmışdır. Əhali artımının orta göstəriciləri orta göstəricidən ölkə üzrə kəmiyyətlərdən yuxarıdır. İnzibati rayonlarda da əhali artımı 1999-2009-cu illərdə əvvəlki onilliyə nisbətən xeyli aşağı olmuşdur, yalnız Zərdab rayonunda kənd əhalisinin artımı yüksək olaraq qalmışdır. 2009-cu ildə Kürdəmir rayonunda kənd əhalisinin sayı 82,9 min nəfərə çatmışdır. 1989-1999-cu illərdə rayonda kənd əhalisinin sayı ən yüksək templə çoxalmışdır, sonrakı 10 illikdə artım zəifləsə də, iqtisadi rayon üzrə orta göstəricidən yuxarı olmuşdur.

Kənd əhalisinin sayına görə ikinci yeri tutan Göyçay rayonunda 72,2 min nəfər əhali qeydə alınmışdır. Eyni artım göstəriciləri Göyçay rayonuna da aiddir. Ağdaş və Ucar inzibati rayonlarında 2009-cu ildə kənd əhalisinin sayı 60,0 min nəfərdən çox olmuşdur. Yevlax rayonunda kənd əhalisinin sayı zəif templə artması ilə fərqlənir. Buna baxmayaraq 50,0 min nəfəri ötmüşdür, Zərdab rayonunda isə 40,0 min nəfəri keçmişdir (Cədvəl 1).

Son iki siyahıyaalınma (2009-2019-cu illər) arasındakı dövrdə Mərkəzi Aran iqtisadi rayonunda kənd əhalisinin sayı əvvəlki dövrlərə nisbətən daha zəif templə artmışdır. Ona görə ki, təbii artım son dərəcədə aşağı enmişdir, miqrasiyalar əvvəlki kimi davam edir. 2019-cu ildə iqtisadi rayonda əhalinin sayı 700,9 min nəfər, o cümlədən kənd əhalisinin sayı 410,8 min nəfər olmuşdur, kənd əhalisinin payı 58,6% təşkil etmişdir ki, bu da 1989-cu ildən bəri davamlı olaraq artım deməkdir [3]. Eyni zamanda iqtisadi rayonun ölkənin kənd əhalisinin sayına olan payı artmaqda davam etmiş, nəticədə 9,11%-ə yüksəlmişdir.

Regionda kənd əhalisinin sayının artımı inzibati rayonlarda əhalinin sayının yüksək artımı hesabına gedir. 2009-2019-cu illərdə iqtisadi rayonda kənd əhalisinin artımı ölkə üzrə orta göstəricidən yuxarı olmuşdur. Baxmayaraq ki, ümumi əhali üzrə əksinə vəziyyət müşahidə olunur. 2019-cu ildə Kürdəmir rayonunda kənd əhalisinin sayı 90,0 min nəfərdən, Göyçay rayonunda 80,0 min nəfərdən çox, Ağdaş rayonunda70,0 min nəfərə yaxın olmuşdur.

1989-2019-cu illərdə Mərkəzi Aran iqtisadi rayonunda kənd əhalisinin sayının artımı müxtəlif səviyyələrdə getmişdir. İqtisadi rayon üzrə bu dövrdə kənd əhalisinin sayı 394,0 min nəfər (46,9%) çoxalmışdır ki, bu da ölkə üzrə orta göstəricidən yuxarıdır. Ölkə üzrə kənd əhalisinin artımının 30,4%-i iqtisadi rayonunun payına düşür ki, bu da yüksək göstərici hesab oluna bilər. Nisbi hesabla kənd əhalisinin ən yüksək artımı (54,6%) Kürdəmir və Zərdab rayonlarında qeydə alınmışdır. Baxmayaraq ki, mütləq hesabla onlar arasında 2,0 dəfə fərq vardır.

Kürdəmir rayonunda bu dövrdə kənd əhalisinin sayı 32,8 min nəfər artmışdır. Göyçay rayonunda təhlil aparılan dövrdə kənd əhalisi yarısı qədər çoxalmışdır. Qalan inzibati rayonlarda 1989-2019-cu illərdə kənd əhalisi 30,0%-dən yuxarı səviyyədə artmışdır. Mütləq hesabla kənd əhalisinin sayı Göyçay rayonunda 27,1 min nəfər, Ağdaş rayonunda 19,3 min nəfər artmışdır. Digər rayonlarda bu artım səviyyəsi zəifdir.

İnzibati rayonlarda yerləşən şəhər yaşayış məntəqələrinin sosial-iqtisadi və mədəni bazasının zəifliyi, iş yerləri ilə təminatda və yaşayış şəraiti qurulmasında olan çətinliklər ətraf kəndlərdən əhalinin qəbul edilməsinə imkan vermir. Eyni zamanda əhalisinin sayı çox olan iri kənd yaşayış məntəqələrinə qəsəbə və ya şəhər statusu verilmir. Bu məsələdə qanunvericilikdə olan uyğunsuzluqlar da öz təsirini göstərir. Əhalisi 5,0 min nəfərdən çox olan əksər kəndlərə qəsəbə statusu verilə bilər.

Göstərilən çətinliklər və problemlər inzibati rayonlarda kənd əhalisinin sayının çox olmasına və əhali arasında payının yüksək göstərilər almasına kənd əhalisinin gətirib çıxarır. Kürdəmir, Ucar və Zərdab inzibati rayonlarında əhalinin 80,0%-ə qədəri kəndlərdə yaşayır. Belə vəziyyət uzun müddətdir ki, davam edir, hətta kənd əhalisinin payı zəif templə də olsa, artır, şəhərlərin demoqrafik inkişafında irəliləyişlər aşağı səviyyədədir və ya yoxdur [9]. Göyçay rayonunda isə əhalinin 70,0%-dən çoxu kəndlərdə cəmlənir. Bu göstərici artmaqda davam edir. Ağdaş rayonunda da kənd əhalisinin payı yüksək olaraq qalır və 68,0% səviyyəsindədir, 2009-cu ildən sonra artmışdır.

Yevlax rayonunda kənd əhalisinin payı aşağıdır (43,9%). Yuxarıda qeyd edildiyi kimi Yevlax şəhərində əhalinin sayı 65,1 min nəfər kənd əhalisinin, şəhər əhalisinin ümumi sayı 72,5 min nəfərdir (01.01.2024). Ona görə inzibati rayonda urbanizasiya səviyyəsi yüksəkdir. Eyni zamanda digər inzibati rayonlardan fərqli olaraq burada kənd əhalisinin payı azalmağa doğru gedir.

İnzibati rayonlarda kənd əhalisinin paylanmasının təhlili də vacib məsələlərə aiddir, onun əsas göstəricisi kənd əhalisinin payının dəyişməsidir. Bu göstəricilərdə əsaslı dəyişikliklər olmasa da, fərqlər nəzərə çarpır.

XXI əsrdə kənd əhalisinin payı Ağdaş, Ucar, Yevlax rayonlarında azalmış, qalan inzibati rayonlarda artmışdır. Onların kəmiyyəti kənd əhalisinin sayına uyğun dəyişilir. Ona görə aparıcı yerləri Kürdəmir, Göyçay və Ağdaş rayonları tutur. Yevlax və Zərdab rayonlarının kənd əhalisinin sayında olan xüsusi çəkisi aşağı kəmiyyətlərə malikdir.

**Kənd məskunlaşması.**

Kəndlər əhalinin məskunlaşmasında əhəmiyyətli yer tutur. Mərkəzi Aran iqtisadi rayonuna daxil olan inzibati rayonlarda kənd əhalisinin böyük əksəriyyət daşıdığını nəzərə alaraq kənd məskunlaşması da aparıcı mövqeyə malikdir, yaxın perspektivdə də bunun qorunub saxlanacağını söyləmək olar.

2019-cu ildə aparılmış son siyahıyaalınmanın nəticələrinə görə Mərkəzi Aran iqtisadi rayonuna daxil olan inzibati rayonlarda 300 kənd yaşayış məntəqəsi olmuşdur (Cədvəl 2). Bu məntəqələrdə 410,8 min nəfər kənd əhalisi məskunlaşır. İqtisadi rayonda ölkənin kənd yaşayış məntəqələrinin 7,07%-i, kənd əhalisinin 9,11%-i cəmlənir [3].

Cədvəl 2

İqtisadi rayonda kənd əhalisinin qruplaşması

| Qruplar, nəfər | 1999 | | | | 2009 | | | | 2019 | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kəndlər | | Kənd əhalisi | | Kəndlər | | Kənd əhalisi | | Kəndlər | | Kənd əhalisi | |
| | Sayı | Faiz | Sayı | Faiz | Sayı | Faiz | Sayı | Faiz | Sayı | Faiz | Sayı | Faiz |
| 0-50 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 50-100 | - | - | - | - | 2 | 0,7 | 198 | 0,1 | - | - | - | - |
| 100-200 | 17 | 5,5 | 2665 | 0,8 | 8 | 2,7 | 1241 | 0,3 | 9 | 3,0 | 1354 | 0,3 |
| 200-500 | 67 | 21,8 | 24009 | 7,0 | 59 | 19,6 | 21231 | 5,6 | 50 | 16,7 | 17647 | 4,3 |
| 500-1000 | 94 | 30,5 | 70275 | 20,4 | 89 | 29,6 | 66829 | 17,7 | 88 | 29,3 | 65823 | 16,0 |
| 1000-2000 | 93 | 30,2 | 125798 | 36,6 | 97 | 32,2 | 134391 | 35,6 | 98 | 32,7 | 139256 | 33,9 |
| 2000-3000 | 19 | 6,3 | 46412 | 13,6 | 25 | 8,3 | 60296 | 16,0 | 30 | 10,0 | 71303 | 17,4 |
| 3000-5000 | 10 | 3,3 | 35418 | 10,3 | 14 | 4,6 | 52483 | 13,8 | 17 | 5,6 | 64631 | 15,7 |
| 5000-dən çox | 7 | 2,4 | 39305 | 11,4 | 7 | 2,3 | 41286 | 10,9 | 8 | 2,7 | 50770 | 12,4 |
| Cəmi | 309 | 100,0 | 343882 | 100,0 | 301 | 100,0 | 377955 | 100,0 | 300 | 100,0 | 410784 | 100,0 |

**Mənbələr:** AR əhalisinin 1999-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, cins-yaş tərkibi. Bakı: ДSK, 2000, səh. 25-35. AR əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. Bakı: ДSK, 2010, s. 24-30. AR-da əhalinin siyahıyaalması. 2019-cu il. I c. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. Bakı: ДSK, 2022, S. 16-410.

Qəbul edilmiş təsnifata görə kəndlər əhalisinin sayına görə kəskin fərqlənir. əhalinin sayının artması prosesində onlar əhalisi çox olan qruplara keçir. Əmək tutumlu pambıqçılığın inkişafı, düzən relyef, su mənbəyi olan Kür çayına yaxınlıq, yüksək təbii artım göstəriciləri əhalisi çox olan iri kəndlərin yaranmasına imkan vermişdir. Ona görə kiçik kənd yaşayış məntəqələrinin sayı azdır. İqtisadi rayonda əhalisi 100-200 nəfər arasında olan 9 kənd yaşayış məntəqəsi vardır, onlarda 1354 nəfər yaşayır. Bu göstəricinin xüsusi çəkisi kəndlərin sayına görə 3,0%, kənd əhalisinin sayına görə 0,3% təşkil edir (Cədvəl 2).

Təsnifata görə əhalisi 200-500, 500-1000 və 1000-2000 nəfər arasında olan qruplar böyük əksəriyyət təşkil edir. 3 qrupda 236 kənd yaşayış məntəqəsi, onların payı 78,7% təşkil edir, kənd əhalisinin sayı isə 222,7 min nəfərdir, xüsusi çəkisi 54,2% səviyyəsindədir.

İqtisadi rayonda kəndlərin sayına və onlarda yaşayan əhalinin sayına görə birinci yeri əhalisinin sayı 1000-2000 nəfər arasında olan kəndlər tutur. Qrupda olan 98 kənddə 139,3 min nəfər əhali yaşayır. Onların payı 30,0%-dən yuxarıdır. Əhalisi 500-1000 nəfər olan kəndlər də qruplaşmada yüksək göstəriciləri ilə fərqlənir. Bu qrupda olan 88 kənd yaşayış məntəqəsində 65,8 min nəfər əhali vardır.

Əhalisinin sayı çox olan daha yuxarı qruplarda kəndlərin sayı az olsa da, onlarda toplanan kənd əhalisi sayının çoxluğu ilə fərqlənir. Əhalisi 2000 nəfər və daha çox olan kəndlər mühüm məskunlaşma mərkəzləridir. Onlar ətraf kəndlərin də inkişafında, sosial-mədəni xidmət mərkəzlərinin yerləşməsində xüsusi rol oynayır.

Mərkəzi Aran iqtisadi rayonunda əhalisi 2000-3000 nəfər arasında olan 30 kənd, 3000-5000 nəfər arasında olan 17 kənd yaşayış məntəqəsi yerləşir. Bu kəndlərdə uyğun olaraq 71,3 min nəfər və 64,6 min nəfər kənd əhalisi məskunlaşır, onların xüsusi çəkisi isə 17,4% və 15,7%-dir.

Kəndlərin və kənd əhalisinin təsnifatında əhalisi 5000 nəfərdən çox olan məntəqələr xüsusi əhəmiyyətinə görə fərqlənir. Onlar gələcəkdə qəsəbələr və şəhərlərin formalaşması üçün baza rolunu oynayır. İqtisadi rayonda 8 kəndin əhalisi 5000 nəfərdən çoxdur. Bu qrup kəndlərdə 50,8 min nəfər əhali yaşayır. Onlar isə ümumi kənd əhalisinin 12,4%-ni təşkil edir.

Son 3 siyahıyaalınmanın nəticələrinin müqayisəli təhlili göstərir ki, kəndlərin sayında ciddi dəyişiklik olmamışdır. İlk növbədə inzibati rayonlarda bəzi kəndlərə qəsəbə statusu verilməsi ilə əlaqədar kənd əhalisinin sayı azalmışdır. 1999-2019-cu illərdə 9 kənd yaşayış məntəqəsi siyahıdan çıxarılmışdır. Qəsəbə statusu alan kəndlərə Kürdəmir rayonunda Karrar və Qarabucaq qəsəbələri, Yevlax rayonunda Meyvəli və Duzdağ qəsəbələri aiddir. 1999-cu ildə iqtisadi rayonda 309 kənd məntəqəsi qeydə alınmışdır [1, 2, 3].

İkincisi, kəndlərdə əhalinin sayının artması ilə əlaqədar daha yuxarı qruplarda məntəqələr və onlarda toplanan əhalinin sayı da çoxalmışdır. 1999-cu ildə əhalisi 500 nəfərə qədər olan 84 kənddə 26,7 min nəfər, 500-1000 nəfər arasında olan 94 kənddə 70,3 min nəfər, 1000 nəfərdən çox olan 129 kənddə 246,9 min nəfər əhali yaşamışdır. Təhlil aparılan ildə, o cümlədən 5000 nəfərdən çox əhaliyə malik 7 kənddə 39,3 min nəfər əhali olmuşdur [7, 8].

2009-cu ildə əhalisi 500 nəfərə qədər olan 69 kənddə 22,7 min nəfər, 500-1000 nəfər arasında olan 89 kənddə 66,8 min nəfər, 1000 nəfərdən çox olan 143 kənddə 288,5 min nəfər əhali toplanmışdır. Bu dövrdə əhalisi çox olan kəndlərin qəsəbələrə çevrilməsi ilə əlaqədar 5000 nəfərdən çox əhaliyə malik olan kəndlərin sayı dəyişməmiş, onlarda əhalinin sayı az olmuşdur. İki siyahıyaalınma arasındakı dövrdə kəndlərin əhalisi 500 nəfərə qədər olan kəndlərin əhalisinin sayı 4,0 min nəfər (15,0%), əhalisi 500-1000 nəfər arasında olan kəndlərdə əhalinin sayı 3,5 min nəfər (5,0%) azalmışdır. Daha yuxarı qruplarda yerləşən və 1000 nəfərdən yuxarı əhali sayına malik olan kəndlərin əhalisi 41,6 min nəfər (16,9%) çoxalmışdır.

2019-cu ildə 500 nəfərə qədər olan 59 kənddə əhalinin sayının azalması 3,7 min nəfər (16,3%) olmuşdur. 500-1000 nəfər arasında olan kəndlərdə ümumi əhalinin sayı 10 il əvvələ nisbətən 1000 nəfər az olmuşdur. 1000 nəfərdən çox əhaliyə malik kəndlərin sayı 153-ə çatmış, onlarda 326,0 min nəfər əhali cəmlənmişdir. Əhalinin sayı 10 ildə 37,5 min nəfər (13,0%) çoxalmışdır. O cümlədən əhalisi 5000 nəfərdən çox olan kəndlərdə ümumi əhalinin sayı 9,5 min nəfər artmışdır.

## NƏTİCƏLƏR.

Regionlarda inzibati rayon mərkəzlərinin zəif sosial-iqtisadi və mədəni bazasının zəif olması kəndlərdən miqrasiya edən əhalinin qəbul edilməsinə imkan vermir. Ona görə inzibati rayonlarda uzun illərdir ki, urbanizasiya səviyyəsi aşağı olaraq qalır. Mingəçevir kimi sənaye mərkəzinin burada yerləşməsi ilə əlaqədar iqtisadi rayonda urbanizasiyanın orta göstəricisi yüksəkdir.

Kənd əhalisinin üstünlük təşkil etməsi və təbii artımın yüksək göstəriciləri onun sayının yüksək templə artmasına səbəb olurdu. Lakin son illərdə təbii artım kəmiyyətləri kəskin azalmışdır. Buna görə kənd əhalisinin sayı zəif templə artır.

1999-cu ildən sonra kəndlərə qəsəbə statusu verilməsi nəticəsində onların sayı xeyli azalmışdır (9 kənd). Kürdəmir və Yevlax rayonlarında qəsəbələrin sayı daha çox artmışdır. Lakin Göyçay rayonunda və Mingəçevir şəhəri ətrafında qəsəbələr yoxdur.

Kəndlərdə əhalinin sayının artması ilə əlaqədar onlar yuxarı qruplara keçir. Hazırda iqtisadi rayonda əhalisi 500-1000 və 1000-2000 nəfər olan kəndlərin sayı çoxdur. əhalisi 5000 nəfərdən çox olan 8 kənd mövcuddur. Onlar kənd məskunlaşmasında mühüm rol oynayır

## ƏDƏBİYYAT:


1. AR əhalisinin 1999-cu il siyahıyaalınmasının yekunları. I cild. Əhalinin sayı, cins yaş tərkibi. DSK, Bakı, 2000, 565 s.
2. AR əhalisinin siyahıyaalınması. 2009-cu il. AR DSK. Statistik məcmuə, I cild. Əhalinin sayı, cins–yaş tərkibi. Bakı: 9 №-li kiçik müəssisə, 2010, 629 s.
3. AR əhalisinin siyahıyaalınması - 2019, I cild, Əhalinin sayı, cins–yaş tərkibi. Bakı: Dövlət Statistika Komitəsi, 2022. 682 s.
4. Azərbaycanın əhalisi - 2023. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024, 134 s.
5. Azərbaycanın demoqrafik göstəriciləri - 2023. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024, 617 s.

6. Azərbaycanın regionları. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2023. 865 s.
7. Azərbaycan Respublikasında kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Baş red. Z.N.Eminov. Bakı, 2021. "OPTİMİST" MMC çap mərkəzi. 552 s.
8. Eminov Z.N. Azərbaycanın əhalisi. Bakı.2005, Çıraq. 560 s.
9. Eminov Z.N. Azərbaycan Respublikasının sosial-demoqrafik inkişafı və məşğulluq problemləri. "CN Poliqraf" MMC, Bakı, 2023, 451 səh.
10. İnzibati ərazi bölgüsü təsnifatı, 2024. Bakı, DSK, 2024, 119 s.
11. Azərbaycan Respublikasının coğrafiyası. II cild. İqtisadi, sosial və siyasi coğrafiya. Bakı, 2015, 327 s.
12. Azərbaycan Respublikasının coğrafiyası. III cild. Regional coğrafiya. Bakı, 2015, 400 s.
13. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı: Çıraq, 2010, 416 s.
14. Aran iqtisadi rayonunda demoqrafik inkişaf problemləri və əhalinin məskunlaşması. Baş red. Z.N.Eminov. Bakı, "Region Press"MMC, 2022, 350 s.

## РЕЗЮМЕ

## СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ РАЗВИТИЯ СЕЛЬСКОГО РАССЕЛЕНИЯ В ЦЕНТРАЛЬНО-АРАНСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

**С.Х.Алиева**

Сельское расселения охватывают все регионы страны, в них проживает до половины населения. Важную роль в развитии сел играет близость к регионам с водными ресурсами. Потому что земледелие на равнинах и предгорьях возможно только в условиях орошения. В Центрально-Аранском экономическом районе, занимающем центральную и западную части Кура-Аразской низменности, большое значение имеет также сельское расселение. В административных районах, входящих в состав экономического района, основная часть населения проживает в сельской местности. Благодаря большому количеству сельских населенных пунктов экономический район является одним из важнейших регионов страны по производству сельскохозяйственной продукции.

В последнее время снижение естественного прироста сельского населения привело к снижению темпов роста его численности. Важнейшими задачами являются удовлетворение социальных и культурных потребностей населения, проживающего в сельской местности, обеспечение его занятости, повышение уровня жизни.

В статье рассматриваются современное состояние сельского расселения в экономическом районе, пути его регулирования, проблемы развития села.

**Ключевые слова**: экономический район, сельское поселение, сельское население, группировка деревень, административный район.

## SUMMARY

## MODERN DEVELOPMENT TRENDS OF RURAL SETTLEMENT IN THE CENTRAL ARAN ECONOMIC REGION

**S.X. Aliyeva**

Rural settlement covers all regions of the country, with nearly half of the population residing in these areas. The proximity of villages to water resources plays a crucial role in their location, as agriculture in lowland and foothill areas is possible only under irrigation conditions. Rural settlement is of great importance in the Central Aran economic region, which occupies the central and western parts of the Kura-Araz lowland. In the administrative districts within this economic region, the majority of the population lives in villages. Due to the large number of rural settlements, this economic region is one of the country's most important agricultural production areas.

Recently, the decline in the natural population growth rate in rural areas has led to a slowdown in population increase. Addressing the social and cultural needs of the rural population, ensuring employment opportunities, and improving living standards are key challenges.
This article examines the current state of rural settlement in the economic region, the ways to regulate it, and the development problems of villages.
**Key words**: economic region, rural settlement, rural population, grouping of villages, administrative region.